Azərbaycan Konstitusiyasının qəbul edilməsinin 30-cu və
Vətən müharibəsində qələbənin 5-ci ildönümünə
həsr olunur

UOT 94(479.24)

SƏİDƏ QULİYEVA
Bakı Dövlət Universitetinin dosenti,
tarix üzrə fəlsəfə doktoru
ORCİD İD 0000-0003-4320-3425
saidaquliyeva@bsu.edu.az

20 YANVARDAN VƏTƏN MÜHARİBƏSİNƏ: AZƏRBAYCAN XALQININ ŞƏHİDLİK YADDAŞI VƏ ANIM MƏKANLARI

DOI: https://doi.org/10.36719/2708-065X/110/16-22

Tədqiqat 20 Yanvar faciəsinin 35 illiyinə,
Vətən müharibəsinin 5 illiyinə həsr edilir.

Tədqiqatın məqsədi 20 Yanvar faciəsindən başlayaraq Qarabağ müharibələri dövründə Azərbaycanın müxtəlif bölgələrində yaradılmış Şəhidlər Xiyabanlarının yaranmasını və ideoloji mahiyyətini araşdırmaqdan ibarətdir. Eyni zamanda şəhidlik anlayışın Azərbaycan xalqı üçün mahiyyəti və milli kimliyin formalaşmasına təsirləri izah edilir. Tədqiqat obyektini bu məkanların kollektiv yaddaşın formalaşmasında, milli kimliyin qurulmasında və dövlət ideologiyasının təbliğində oynadığı rol təşkil edir. Aparılan təhlillər göstərir ki, şəhidlik Azərbaycan cəmiyyətinin tarixi şüurunda dərin iz buraxmış və bu hadisələrə ictimai münasibət, zamanla anım məkanlarının formalaşmasına səbəb olmuşdur. Xüsusilə 20 Yanvar faciəsi şəhidlik anlayışını milli, siyasi və dini dəyər səviyyəsinə yüksəltmiş, bu konsepsiya daha sonra Qarabağ müharibələri zamanı ölkənin müxtəlif bölgələrində yaradılmış Şəhidlər Xiyabanlarında davam etdirilmişdir. Nəticə etibarilə, bu məkanlar yalnız dəfn yerləri deyil, həm də milli birliyin simvolu, vətənpərvərlik ruhunun təzahürü və kollektiv yaddaşın daşıyıcıları kimi çıxış edir.

Açar sözlər: Azərbaycan, Qarabağ müharibəsi, Şəhidlər Xiyabanı, 20 Yanvar, Xocalı soyqırımı.

Giriş. Azərbaycan xalqının tarixi yaddaşında şəhidlik anlayışı təkcə fərdi qəhrəmanlıq nümunəsi kimi deyil, həm də milli kimliyin, mübarizə ruhunun və kollektiv yaddaşın ifadəsi kimi dəyərləndirilir. Vətən uğrunda canından keçmiş insanlara ehtiram göstərilməsi, azərbaycanlıların tarixi adət-ənənəsinin və mənəvi-mədəni dəyərlər sisteminin ayrılmaz tərkib hissəsidir.

Tədqiqatın əsas terminlərinin - "şəhidlik" və "anım məkanı" anlayışlarının izahı mövzunun düzgün anlaşılması baxımından zəruridir. Çünki məqalədə bu anlayışların bir-biriylə qarşılıqlı əlaqəsi və müasir dövrdə hansı problemlər üzərində müzakirə edildikləri göstərilir. Şəhidlik yalnız şəxsi qurban vermə fenomeni kimi deyil, həm də cəmiyyətin kollektiv yaddaşının formalaşmasında mühüm rol oynayan, milli və mənəvi dəyərlərin qorunması baxımından qiymətləndirilən bir anlayış kimi təqdim edilir. Kollektiv yaddaş, ictimai təcrübələrin və tarixi hadisələrin cəmiyyətdə necə yadda saxlanıldığına diqqət çəkməklə, sosial xüsusiyyətləri və mədəni əlaqələri ortaya qoyur [17]. "Şəhidlik" dini, milli və siyasi kontekstlərdə güclü ideoloji və simvolik mənası olan anlayışdır. Ərəb mənşəli termin haqq yolunda can verərək əqidəsini sübut edən şəxs mənasını daşıyır. Azərbaycan kontekstində bu anlayış son 35 ildə, xüsusilə 20 Yanvar faciəsi ilə ictimai-siyasi müstəvidə geniş yayılmış və yeni məna qazanmışdır. Hazırda şəhid anlayışı XX əsrin əvvəllərindən başlayaraq erməni faşistlərinin həyata keçirdikləri etnik təmizləmə və soyqırımı cinayətlərinin qurbanlarına, erməni millətçilərinin bu siyasətlərinə

qarşı mübarizədə həlak olan insanlara da aid edilir. Beləliklə, şəhidlik anlayışı milli-azadlıq mübarizəsi, dövlətçilik və vətənpərvərlik anlayışları ilə eyniləşdirilərək həm milli ideologiyanın, həm də ictimai emosional yaddaşın əsas sütunlarından birinə çevrilmişdir. Vətən müharibəsi (2020) dövrü və ondan sonrakı mərhələ bu anlayışın aktuallığını bir daha gündəmə gətirmişdir. Bu anlayış hazırda Azərbaycan cəmiyyətində ideoloji-siyasi, mədəni-estetik və dini aspektlərdə cəmiyyətin milli xüsusiyyətlərinin formalaşmasında mühüm yer tutur.

Anım məkanları da (dəfn yerləri, muzeylər, xatirə parkları, memorial kompleksləri) bu kollektiv yaddaşın ictimai və ideoloji cəhətdən konkret məkanda təcəssüm tapmasını və gələcək nəsillərə ötürülməsi prosesini ifadə edir [17]. XX əsrdə Azərbaycanda anım məkanlarının təşəkkül tapması sovet dövründə II Dünya müharibəsində həlak olanların xatirəsinə ucaldılan abidələrlə başlamışdır. Demək olar ki, bütün rayon və kəndlərdə bu mövzuda abidələr yaradılmışdır. 20 Yanvar faciəsi və Qarabağ müharibələri ilə əlaqədar "Şəhidlər Xiyabanı" adlandırılan yeni müqəddəs hesab edilən ideoloji məkanlar formalaşmışdır. Bu xiyabanlar təkcə dəfn yeri deyil, eyni zamanda kollektiv yaddaşın yaşadıldığı və birgə anım tədbirlərinin keçirildiyi mühüm ictimai məkanlardır.

Tədqiqatın məqsədi 20 Yanvar hadisəsindən başlayaraq, Qarabağ müharibələri dövründə və ondan sonra Azərbaycanın müxtəlif bölgələrində yaradılan şəhidlər xiyabanlarının tarixi, ideoloji funksiyalarını araşdırmaq, həmçinin onların kollektiv yaddaşın formalaşmasında, milli kimliyin təşəkkülündə və dövlət ideologiyasının qurulmasında oynadığı rolu elmi əsaslarla təhlil etməkdən ibarətdir. Azərbaycan tarixşünaslığında bu mövzuya ilk dəfə müraciət edilir.

"Şəhidlər Xiyabanı" məkanlarının və anlayışının yaranması. Tədqiqat nəticəsində belə qərara gəlirik ki, şəhidlər və onlarla əlaqədar hadisələrin yaddaşlarda dərin iz buraxması cəmiyyətin tarixi kimliyində əhəmiyyətli yer tutur və bu hadisəyə münasibət şəhidlərin xatirəsinin əbədiləşdirilməsinə, onlara aid anım məkanlarının yaradılmasına səbəb olmuşdur. Şəhidlərin fədakarlığı, cəmiyyət üzərində mənəvi iz qoyur və bu iz, kollektiv yaddaşın formalaşmasında əsas amillərdən biri kimi çıxış edir.

Məlumdur ki, bir sıra məsələlərdə 20 Yanvar hadisəsi Azərbaycan xalqının kollektiv şüurunda dönüş nöqtəsi olmuşdur. Bununla yanaşı, faciə şəhidlik anlayışını milli, siyasi və dini dəyər halına gətirmişdir. Belə ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet Ordusunun Bakıya və digər bölgələrə daxil olaraq mülki əhaliyə qarşı həyata keçirdiyi kütləvi qırğın nəticəsində rəsmi məlumata görə, 147 nəfər həlak olmuş, yüzlərlə insan yaralanmışdır [1; 2; 3, s.4-27; 14]. Baş vermiş hadisənin yaratdığı sarsıntıya baxmayaraq xalq şəhidlərin dəfn mərasimini Azadlıq meydanından başlayaraq, izdihamlı bir yürüşlə Dağüstü parka qədər davam etdirmişdi [19]. Minlərlə insan şəhid cənazələrini çiyinlərində daşıyaraq xalqın həmrəyliyini və əzmini nümayiş etdirmişdir. Bu yürüş ümumxalq kədərini və müstəqillik uğrunda verilmiş qurbanların xalq tərəfindən nə qədər yüksək dəyərləndirildiyini göstərir. Beləliklə, Şəhidlər Xiyabanı sadəcə məzarlıq deyil, həm də milli kimliyin və tarixi yaddaşın simvolik məkanına çevrilmişdir. Şəhidlərin dəfnindən sonra xalq onların xatirəsinə ehtiram göstərmək və baş verən faciəyə ictimai reaksiya vermək məqsədilə 40 gün müddətində matəm tətili elan etmişdi. Bu təşəbbüs xalqın yaşadığı dərin kədərin, ictimai etirazın və ədalət tələbinin simvolik ifadəsi idi. 20 Yanvar faciəsi Azərbaycan cəmiyyətində, ictimai fikrində yeni anlayışların yaranmasına səbəb oldu.

20 Yanvar faciəsindən sonra Bakı şəhərinin ən yüksək nöqtəsində – Dağüstü parkda şəhidlərin dəfn olunduğu ərazıyə "Şəhidlər Xiyabanı" adı verildi. 20 Yanvar faciəsinin səhərisi günü şəhidlərin dəfn və matəm tədbirlərini təşkil etmək məqsədilə xüsusi Dəfn Komissiyası yaradılmışdır. Nə qədər çətin olsa da, həmin dövrdə Dəfn Komissiyanın fəaliyyəti 20 Yanvar faciəsinin tarixi yaddaşda layiqincə yer almasına və Azərbaycan xalqının milli mübarizəsinin əbədi dəyərlərə çevrilməsinə töhfə vermişdir [19]. Komissiya, 1918-ci il soyqırımı qurbanlarının Dağüstü parkda dəfn olunmasını əsas götürərək, 20 Yanvar şəhidlərinin də həmin ərazidə dəfninə qərar vermişdir. Qazıntılar zamanı buradan müsəlman qəbiristanlığının qalıqları aşkarlanmışdır. Müəyyən edilmişdir ki, burada 1918-ci ilin martında Bakı şəhərində daşnak və bolşevik silahlı dəstələri tərəfindən həyata keçirilmiş soyqırımı [12] nəticəsində həlak olmuş türk-müsəlman əhalisinin, eləcə də həmin il Bakının azad olunması zamanı şəhid olmuş Osmanlı əsgərlərinin cənazələri dəfn edilmişdir. Lakin Sovet hakimiyyəti 1934-cü ildə qəbiristanlığı ləğv etmiş və ərazidə Sovet liderlərindən Sergey Kirovun adını daşıyan istirahət parkı salmışdır. Bu addım, keçmişin izlərini ictimai yaddaşdan silmək cəhdi kimi qiymətləndirilə bilər. Lakin Azərbaycan xalqı, bütün bu maneələrə baxmayaraq, baş verənləri yaddaşda qoruyub saxlamışdır.

Beləliklə, Mart soyqırımı qurbanları da 20 Yanvar şəhidləri ilə eyni sırada üç məzarda dəfn olunmuşlar. Şəhidlər xiyabanı həm 1918, həm də 1990-cı il şəhidlərinin uyuduğu, tarixi ardıcıllığın və milli birliyin simvoluna, müxtəlif dövrlərdə baş verən milli faciələrin birgə yaddaş məkanına – anım məkanına çevrilmişdir.

Əlavə edək ki, Qafqaz İslam Ordusunun Bakının azad edilməsindəki rolunu əbədiləşdirmək məqsədilə 2000-ci ildə Şəhidlər Xiyabanının yanında yerləşən "Bakı Türk Şəhidliyi" abidəsi inşa olunmuşdur [13, s. 238–239]. Xalqın öz tarixini öyrənməsi və dəyərlərini qoruması tarixin müxtəlif dövrlərinə aid şəhidliklərin də üzə çıxmasına, bərpa olunmasına səbəb oldu: 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusunun Gəncədən Bakıya qədər uzanan döyüş yolunda, həmçinin Azərbaycanın müxtəlif bölgələrində "Türk Şəhidliyi" abidələri bərpa olundu.

Şəhidlər Xiyabanında 1999-cu ildə "Əbədi Məşəl" Abidə Kompleksi açılmış, 2007-ci il 2 noyabr tarixində isə bütün xiyaban bir kompleks halında yenidən qurulmuş, genişləndirilmiş, bütün şəhid məzarları mərmər örtüklə yenilənmişdir [3, 123]. Bu möhtəşəm kompleks xalqın 20 Yanvar və Qarabağ şəhidlərinə bəslədiyi sonsuz ehtiramın və minnətdarlığın rəmzidir.

Qarabağ müharibələri, şəhidlik anlayışının genişlənməsi və şəhidlərin dəfn edildiyi digər məkanlar. 20 Yanvar faciəsini Qarabağ münaqişəsi kontekstində ilk genişmiqyaslı qətliam kimi dəyərləndiririk. Bu səbəbdən də faciədən sonra şəhidlərin bir məkanda anılması qərarı tarixi hadisələrin eyni məkanla əlaqələndirilməsi baxımından mühüm addım olmuşdur. 20 Yanvar şəhidləri ilə yaranan Şəhidlər Xiyabanı anlayışı 90-cı illərdə yeni anlam kəsb edir: Azərbaycanın dövlət müstəqilliyi uğrunda və erməni faşizminə qarşı mübarizə aparan qəhrəmanların dəfn olunması üçün Azərbaycanın müxtəlif yaşayış məskənlərində şəhidlər xiyabanları salınmış, qəhrəmanların xatirəsinin əbədiləşdirildiyi müqəddəs məkanlara çevrilmişdir.

O dövrün hadisələrini ümumiləşdirən görkəmli dövlət xadimi Heydər Əliyev bu barədə belə deyirdi: "*Xalqımızın tarixində çox əzəmətli, qiymətli abidələr var. Ancaq şəhidlər Xiyabanı, XX əsrin sonunda Azərbaycan xalqının milli azadlıq uğrunda özünü qurban vermiş şəhidlərinin məzarları, Azərbaycan Respublikasının, Azərbaycan torpağının ən müqəddəs yeridir və ən qiymətli abidəsidir. Bu Şəhidlərdən sonra Azərbaycan öz torpaqlarını qorumaq üçün bir çox Şəhidlər veribdir. Ona görə də 20 Yanvar şəhidləri ilə yanaşı, Azərbaycanı erməni təcavüzündən qorumaq uğrunda mübarizəyə qalxan, döyüşlərə gedən Azərbaycanın qəhrəman oğulları, Şəhid olanlar da Şəhidlər Xiyabanındadır*" [16, s.137-140]. Bu fikirlər göstərir ki, Şəhidlər Xiyabanı yalnız 20 Yanvar şəhidlərinin deyil, həm də Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş bütün qəhrəmanların kollektiv xatirəsinə çevrilmişdir. Xüsusilə Qarabağ müharibəsi dövründə Vətən uğrunda şəhid olan hərbçilərin də burada dəfn edilməsi bu məkanın milli və simvolik dəyərini artırmışdır.

Qarabağ müharibəsinin aktiv dövründə, xüsusilə cəbhə xəttinə yaxın olan Ağdam, Tərtər, Bərdə, Beyləqan, Goranboy, Gəncə, Mingəçevir və digər yerlərdə şəhidlər xiyabanları salınmışdır. Bu məkanlarda müharibə dövründə döyüşlərdə həlak olan əsgərlər və mülki insanlar dəfn olunmuşdur. Müharibə davam etdiyi günlərdə ailələrinin razılığı ilə burada dəfn edilən şəhid məzarları zamanla ictimaiyyət tərəfindən xüsusi əhəmiyyət kəsb edən məkanlara çevrilmişdir. Xalq öz qəhrəmanlarını yad etmək üçün bu xiyabanları ziyarətgaha çevirmiş, əlamətdar tarixi günlərdə qəhrəmanların xatirələri daim yad edilir. Beləliklə, şəhidlik mədəniyyəti yalnız paytaxtla məhdudlaşmamış və ölkənin hər bir bölgəsinə yayılmış, şəhidlərə xalqın ehtiramını əks etdirən anım məkanlarına çevrilmişdir.

Ağdam Şəhidlər Xiyabanı müharibənin ilk günlərindən şəhidlərin dəfn olunduğu əsas məkanlardan biri olmuşdur. XX əsrin ən dəhşətli soyqırımı olan Xocalı soyqırımının qurbanlarının bir hissəsi də bu xiyabanda dəfn edilmişdir. Demək olar ki, Qarabağ müharibələrinin ən böyük şəhidliyi burada idi. Lakin Ağdam şəhəri işğal edildikdən sonra Şəhidlər xiyabanı və ümumiyyətlə, məzarlıqlar erməni faşistləri tərəfindən dağıdılmışdır. Vətən müharibəsindən sonra ərazi azad olunaraq bərpa işlərinə başlanılmışdır [11]. Qarabağ müharibəsi dövründə həm mülki, həm də hərbi itkilər vermiş Bərdə rayonunun Şəhidlər xiyabanı 1992-ci ildə salınmışdır. 90-cı illərin şəhidləri ilə yanaşı 2020-ci ilin oktyabrında mülki əhalinin raket hücumuna məruz qalması nəticəsində həlak olan 29 nəfər də burada dəfn edilmişdir [15]. Gəncədə Salınan Şəhidlər xiyabanında Qarabağ müharibələri, Aprel döyüşləri və Vətən müharibəsi şəhidləri dəfn olunmuş, şəhidlərin xatirəsinə "Əbədi məşəl" abidəsi alovlandırılmışdır. Əldə edilən məlumatlara əsasən Mingəçevir Şəhidlər xiyabanında 258 şəhidin dəfn olunmuşdur (205-i Birinci

Qarabağ müharibəsi, 4-ü Aprel döyüşləri, 49-u isə Vətən müharibəsi). Burada yerləşən "İtkinlər" memorial kompleksində 90-cə illərdə müharibədə itkin düşmüş 106 nəfərin adı əbədiləşdirilmişdir [21].

Bakıda yerləşən Şəhidlər xiyabanında məzar yerlərinin məhdudluğu səbəbindən, Aprel döyüşləri (2016), Tovuz döyüşləri (2020) və Vətən müharibəsində (2020) şəhid olan hərbi qulluqçular paytaxt ərazisində yeni salınmış "Fəxri Xiyaban-2" adlı qəbiristanlıqda dəfn olunmuşdur [22]. İctimaiyyət arasında bu məkan "İkinci Şəhidlər Xiyabanı" adlandırılır.

Regionlarda 90-cı illərdə salınmış Şəhidlər xiyabanlarında sonrakı dövrlərin şəhidləri də dəfn olunmuş, beləliklə, tarixi ardıcıllıq və anım mədəniyyəti qorunub saxlanmışdır. Bu yanaşma dövlətin və cəmiyyətin şəhidlik ideologiyasına verdiyi önəmi və bu ideyanın gələcək nəsillərə ötürülməsi prosesini aydın şəkildə göstərir.

Anım məkanlarının milli kimliyin formalaşmasına təsiri. Tarixi baxımdan kollektiv yaddaş – cəmiyyətin keçmiş hadisələri bütöv şəkildə qəbul etməsi, onları simvolik və funksional təcrübələr vasitəsilə yaddaşda saxlaması və zamanla yenidən şərh etməsi kimi başa düşülür. Hər bir cəmiyyət, yaşadığı tarixi proseslərdən müəyyən nümunələri seçir və onları qavramaq üçün xüsusi simvollar və rituallar yaradır. Belə simvollardan biri anım məkanlarıdır. Bu məkanlar sadəcə olaraq abidə və ya qəbiristanlıq kimi fiziki strukturlarla məhdudlaşmır; əksinə, onlar kollektiv yaddaşın formalaşdığı, qorunduğu və ictimai iştirakla daim yenidən aktuallaşdırıldığı sosial-mədəni platformalardır. Başqa sözlə, anım məkanları yalnız keçmişin xatırlanması üçün deyil, həm də milli kimliyin ifadəsi və ictimai birliyin təşəkkül tapdığı məkanlardır. Anım məkanlarında tarixi hadisələr yad edilir və ənənələr gələcək nəsillərə ötürülür. Dövlət və qeyri-hökumət qurumlarının iştirakı ilə təşkil olunan anım mərasimləri cəmiyyətin öz tarixinə bağlı qalması və milli xüsusiyyətlərini bir daha təkrarlaması üçün zəruri addımlar hesab edilir. El-oba tərəfindən amin mərasimləri həm də şəhid ailələrində təşkil edilir. Bu xüsusiyyətlər mənəvi dəyərlərimizdə mühüm amildir.

Azərbaycan cəmiyyətində bu konsepsiyanın əyani təcəssümü kimi Bakı Şəhidlər Xiyabanı, "Əbədi Məşəl" abidə kompleksi, "Bakı Türk Şəhidliyi" memorialı, eləcə də rayon və kəndlərdə salınmış regional şəhidlər xiyabanları və orada keçirilən tədbirlər göstərilə bilər. Milli kimlik və ideoloji baxışlar burada təşəkkül tapır və möhkəmlənir, həmçinin, xalqın kollektiv yaddaşını formalaşdırmaqla gələcək üçün gənclərə vətənpərvərlik dəyərlərinin ötürülməsinə xidmət edir. Hər il yanvar ayının 20-də Şəhidlər xiyabanına insan axını, ölkə daxilində və xaricdə keçirilən anım mərasimləri kollektiv yaddaşın həm milli, həm də qlobal ictimai forma aldığını göstərir. Şəhidlər Xiyabanı dövlət protokoluna daxil edilmiş rəsmi məkanıdır: Azərbaycana səfər edən bütün yüksək vəzifəli nümayəndələr tərəfindən ziyarət edilir.

Görkəmli dövlət xadimi Heydər Əliyev 20 Yanvar gecəsi əbədiyaşarlıq hüququ qazanan Vətən oğullarının fədakarlığını yüksək qiymətləndirərək demişdir ki, "*20 Yanvar şəhidlərinin qəhrəmanlığı Azərbaycan xalqı üçün, Azərbaycan gəncləri üçün örnəkdir. Azərbaycanın bugünkü nəsli də, gələcək nəsilləri də bu şəhidlərin qəhrəmanlığından nümunə götürəcəklər. Azərbaycan xalqının milli azadlığını qorumaq üçün, müstəqilliyini qorumaq üçün daim mübarizədə olacaqlar. Daim qəhrəmanlıq nümunələri, vətənpərvərlik nümunələri göstərəcəklər. Ona görə də bu şəhidlərin həlak olması bizim üçün nə qədər qəm-qüssə doğurursa, nə qədər ağır itkidirsə, o qədər də xalqımız üçün qəhrəmanlıq nümunəsi kimi, örnək kimi bizim milli sərvətimizdir, milli iftixarımızdır*" [18]. Dövlət tərəfindən şəhidlərin xatirəsinə göstərilən ehtiram [4; 5; 6; 7; 8; 9; 10] və onların ailələrinin qayğı ilə əhatə olunması cəmiyyətin, xüsusilə gənc nəslin vətənpərvərlik hislərinin formalaşmasına, Vətənə sahib çıxmasına səbəb olmuşdur. Bu hislər Vətən müharibəsi dövründə minlərlə gəncin könüllü olaraq Vətəni müdafiə üçün müraciəti ilə də sübut olunur. Bunun nəticəsidir ki, 2020-ci ilin payızında Azərbaycanın əraziləri işğaldan azad olunduqdan sonra xalq kütləvi şəkildə Şəhidlər Xiyabanına axın etmiş və şəhid məzarlarını ziyarət etmişdir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərinin işğaldan azad olunduğunu da məhz bu məkandan elan etmişdir [20]. Bu hadisələr anım məkanlarının siyasi simvola çevrilməsinin bariz nümunəsidir.

Əlavə etmək lazımdır ki, şəhidlərin xatirəsinin əbədiləşdirilməsi təkcə anım məkanı ilə bitmir: simvollar və rəmzlər də kollektiv yaddaşın formalaşmasında mühüm rol oynayır. Beləki, 20 Yanvar faciəsinin atributu qərənfil çiçəyidir. Hər il anım mərasimlərində Şəhidlər Xiyabanın girişi qərənfillərlə bəzədilir [3, s.106, 160, 190, 239, 256, 274]. Xocalı soyqırımının simvolu fevral ayının sonunda açan

badam ağacının çiçəyi, Vətən müharibəsindəki qələbənin simvolu isə orxideya – Şuşada bitən Xarıbülbül çiçəyi seçilmişdir. Bu rəmzlər anım mərasimlərində kollektiv hüzn forması kimi dəyərləndirilir.

Nəticə. Tədqiqat nəticəsində belə qərara gəlirik ki, müasir dünyada şəhidlik, kollektiv yaddaş və anım məkanları kimi anlayışlar yalnız keçmişin izi kimi deyil, həm də cəmiyyətin dəyərlər sisteminin formalaşmasında rol oynayan elementlər kimi öz aktuallığını qoruyub saxlayır. Qloballaşma və informasiya texnologiyalarının sürətli inkişafı şəraitində bu anlayışlara diqqət yetirilməsi aktual məsələ olaraq qalır və mənəvi dəyərlərə aid vacib məsələlər sırasındadır.

20 Yanvar hadisəsi ilə yaranan Şəhidlər xiyabanı anım məkanları olaraq şəhidlik anlayışının dəyərini real məkanlarda simvolik ifadəyə çevrilmiş, həm Bakıda, həm də bölgələrdə milli yaddaşın qorunmasına və gələcək nəsillərə ötürülməsinə xidmət etmişdir. Şəhidlər xiyabanı milli kimliyin, azadlıq ideyasının və ictimai həmrəyliyin mərkəzi olaraq Azərbaycan tarixində özünəməxsus yer tutur. 20 Yanvar və Qarabağ müharibəsi şəhidlərinin burada dəfn olunması ərazini ilk rəsmi Şəhidlər Xiyabanı statusuna yüksəltmişdir. Vətən müharibəsi ilə birlikdə bu yaddaş xətti daha da güclənmiş və Azərbaycan tarixində mühüm mədəni-siyasi irs kimi öz yerini möhkəmləndirmişdir. Bu məkanlar matəm və ehtiram hisləri ilə yanaşı, mübarizə, qürur və vətən sevgisinin simvolik ifadəsidir.

Bölgələrdəki şəhidlər xiyabanlarında müxtəlif dövrlərin şəhidlərinin eyni məkanda anılması xalqın tarixi yaddaşının ardıcıllığını və milli mübarizədə oynadığı rolu göstərən simvolik göstəricilərdir. Bu məkanlar şəhidlik ideyasının, milli kimliyin və tarix şüurunun yaşadılmasına imkan yaradır, eyni zamanda kollektiv yaddaşın formalaşdırılması və nəsildən-nəslə ötürülməsində mühüm vasitə rolunu oynayır.

20 Yanvar faciəsi mahiyyət etibarı ilə daşnak-bolşevik birləşmələrinin 1918-ci ildə Bakıda həyata keçirdikləri soyqırımla oxşarlıq təşkil edir. Azərbaycanlılar üçün şəhidlər xiyabanları erməni faşistlərinin həyata keçirdikləri etnik təmizləmə və işğal siyasətinə, soyqırımı cinayətlərinə qarşı mübarizəsində simvolik məkandır. Bu mübarizənin zəfərlə nəticələnməsi isə anım məkanlarının şəhidlərin əbədi xatirəsinə çevirmiş, ümumxalq yaddaşında dərin və silinməz iz buraxmışdır.

Bu tədqiqatda əldə edilən nəticələr gələcək tədqiqatların yeni istiqamətlərinə, mədəni, ictimai və siyasi sahələrdə yeni yanaşmaların formalaşmasına zəmin yaradır.

ƏDƏBİYYAT

1. 1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında qərar. (1994, mart 29). https://files.preslib.az/projects/aggression/az/c4.pdf [02.06.2025].
2. 20 Yanvar. Təcavüz 1990 // https://aggression.preslib.az/ [02.06.2025].
3. 20 Yanvar: tariximizin qanlı və şanlı səhifəsi. Bakı: Şərq-Qərb, 2014. 356 s.
4. "20 Yanvar Şəhidi" fəxri adının verilməsi haqqında 259 saylı Fərman. (2000, yanvar 17). https://e-qanun.az/framework/276#_edn1 [02.06.2025].
5. "20 Yanvar Şəhidi" fəxri adının verilməsi haqqında 2664 saylı Fərman. (2008, fevral 6). https://e-qanun.az/framework/14540 [02.06.2025].
6. "20 Yanvar Şəhidi" fəxri adının verilməsi haqqında 2868 saylı Fərman. (2017, may 16). https://e-qanun.az/framework/35425 [02.06.2025].
7. "20 Yanvar Şəhidi" fəxri adının verilməsi haqqında 3140 saylı Fərman. (2017, avqust 2). https://e-qanun.az/framework/36283 [02.06.2025].
8. "20 Yanvar Şəhidi" fəxri adının verilməsi haqqında 875 saylı Fərman. (2002, yanvar 28). https://e-qanun.az/framework/1100 [02.06.2025].
9. "20 Yanvar Şəhidi" fəxri adının verilməsi haqqında 930 saylı Fərman. (2003, sentyabr 27). https://e-qanun.az/framework/2279 [02.06.2025].
10. "20 Yanvar Şəhidi" fəxri adının təsis edilməsi haqqında 695 saylı Fərman. (1998, mart 31). https://e-qanun.az/framework/4690 [02.06.2025].
11. Ağdam Şəhidlər xiyabanına yürüş təşkil olunub – VİDEO. 20.01.2023. https://azertag.az/xeber/agdam_sehidler_xiyabanina_yurus_teskil_olunub___video-2453732 [02.06.2025].

12. “Azərbaycanlıların soyqırımı” haqqında 690 saylı Fərman. (1998, mart 26). https://e-qanun.az/framework/4684 [02.06.2025].
13. Bakı Türk Şəhidliyi. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. Cild 1. Bakı: Lider nəşriyyatı, 2004. 440 s.
14. Balayev A., Mirzə R. 20 Yanvar hadisələri: Sənədlər, mövqelər, şərhlər (1990–2000). Bakı: Çaşıoğlu, 2000. 242 s.
15. Bərdədə Şəhidlər Xiyabanı və terror qurbanlarının xatirə lövhəsi ziyarət olunub. 27.09.2024. https://azertag.az/xeber/berdede_sehidler_xiyabani_ve_terror_qurbanlarinin_xatire_lovhesi_ziyaret_olunub-3202426 [02.06.2025].
16. Əliyev H. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Üçüncü kitab. Bakı: Azərnəşr, 1997. 488 s.
17. Halbwachs, M. Collective and historical memory. Neprikosnovenny Zapas, №2. 2005. https://magazines.gorky.media/nz/2005/2/kollektivnaya-i-istoricheskaya-pamyat.html [02.06.2025].
18. Heydər Əliyevin bəyanatı. (1990, yanvar 21). Azərbaycan, 20 yanvar 2010, s.2. https://anl.az/down/meqale/azerbaycan/2010/yanvar/104406.htm [02.06.2025].
19. Xəlili X.. Azərbaycan xalqını dünyaya yenidən millət kimi təqdim edən 20 Yanvar. Bakı: Nicat-H, 2003. 134 s.
20. İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda və Şəhidlər xiyabanında olublar. (2020, noyabr 8). https://president.az/az/articles/view/45756 [02.06.2025].
21. Şəhidlər Xiyabanı - Müqəddəs ziyarətgahımız // http://mingechevir-ih.gov.az/az/news/859.html [02.06.2025].
22. “Unudulmazlar” saytı // https://unudulmazlar.az/az [02.06.2025].

САИДА ГУЛИЕВА
доцент Бакинского Государственного Университета

ОТ 20 ЯНВАРЯ ДО ОТЕЧЕСТВЕННОЙ ВОЙНЫ: ПАМЯТЬ О ШЕХИДАХ И ПАМЯТНЫЕ МЕСТА АЗЕРБАЙДЖАНСКОГО НАРОДА

Исследование посвящено 35-летию трагедии 20 января и 5-летию Победы в Великой Отечественной войне

Целью исследования является изучение происхождения и идеологической сущности Аллей шехидов, созданных в различных регионах Азербайджана начиная с трагедии 20 Января и в период Карабахских войн. Особое внимание уделяется раскрытию понятия шехидства в азербайджанском обществе и его влиянию на формирование национальной идентичности. Объектом исследования выступает роль этих мемориальных пространств в формировании коллективной памяти, становлении национального самосознания и распространении государственной идеологии. Проведённый анализ показывает, что события, связанные с шехидами, оставили глубокий след в историческом сознании азербайджанского народа. Общественное восприятие этих трагедий способствовало постепенному формированию мемориальных пространств, в которых выражается почтение к павшим. В частности, трагедия 20 Января возвела понятие шехидства в ранг национальной, политической и религиозной ценности. Эта концепция получила дальнейшее развитие в Аллеях шехидов, созданных в различных регионах страны в ходе Карабахских войн. Таким образом, указанные пространства представляют собой не только места захоронения, но и символы национального единства, воплощение патриотического духа и носители коллективной исторической памяти.

Ключевые слова: Азербайджан, Карабахская война, Аллея Шехидов, 20 января, Ходжалинский геноцид.

SAIDA GULIYEVA
Baku State University, Associate Professor

FROM JANUARY 20 TO THE PATRIOTIC WAR: THE MEMORY OF THE MARTYRS AND MEMORIAL PLACES OF THE AZERBAIJANI PEOPLE

The study is commemorates the 35th anniversary of the tragedy of January 20 and the 5th anniversary of Victory in the Great Patriotic War

The aim of this research is to examine the origins and ideological significance of the Shehid (Martyr) Alleys established across various regions of Azerbaijan, beginning with the tragedy of January 20 and extending through the Karabakh wars. Particular attention is devoted to the concept of Shehidism within Azerbaijani society and its influence on the formation of national identity. The object of the study is the role of these memorial spaces in shaping collective memory, fostering national consciousness, and advancing state ideology. The analysis demonstrates that events related to the Shehids have left a profound imprint on the historical consciousness of the Azerbaijani people. Public reaction to these tragedies contributed to the gradual development of memorial sites that honor and commemorate the fallen. In particular, the tragedy of January 20 elevated the notion of Shehidism to a national, political, and religious value. This concept was further reinforced through the establishment of Shehid Alleys in different regions of the country during the Karabakh wars. Thus, these spaces function not only as burial grounds but also as symbols of national unity, embodiments of patriotic spirit, and repositories of collective historical memory.

Keywords: Azerbaijan, Karabakh War, Shehid (Martyr) Alley, January 20, Khojaly genocide.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 02 iyul 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Redaksiya heyətinin qərarı ilə nəşr edilir.